

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Oktyabr 2018

iqtisadiislahat.org
info@ereforms.org

AZEXPORT.AZ
Made in Azerbaijan

# “İXRACIMIZ İDXALDAN DAHA YÜKSƏK TEMPLƏRLƏ ARTIR”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının
sosial-iqtisadi inkişafının yekunlarına və
qarşıda duran vəzifələrə həsr olunan iclasındakı
nitqindən



“Bu il iqtisadi sahədə köklü islahatlar davam etdirilir. Biz bu islahatların nəticələrini görürük. Xüsusilə vergi və gömrük sistemində aparılan islahatlar böyük dəyişikliyə, müsbətə doğru dəyişikliklərə səbəb olur. İslahatlar davam etdirilməlidir. Bu gün sahibkarları, ictimaiyyəti narahat edən vergi və gömrük sahəsində işlərlə, məsələlərlə bağlı bütün lazımi addımlar atılmalıdır ki, bu xoşagəlməz hallara son qoyulsun. Gömrük orqanları bu il 800 milyon manatdan çox əlavə vəsait toplamışlar. Mən bunu yüksək qiymətləndirirəm. Əminəm ki, ilin sonuna qədər bu məbləğ daha da artacaq. Bu, onu göstərir ki, ilk növbədə, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir, idxal artır və idxalın artımı da sənayenin inkişafı ilə bağlıdır.

Nəzərə alsaq ki, ixrac idxalı böyük dərəcədə üstələyir, biz idxalın artımına müsbət hal kimi yanaşmalıyıq. Bizim xarici ticarətimizin müsbət saldosu 9 ayda 6,5 milyard dollar təşkil edir. Bilirəm, bəziləri hesab edirlər ki, idxalın artımı müəyyən problemlər yarada bilər. Təbii ki, bu, belədir. Amma o təqdirdə ki, ixracımız artmasın. İxracımız idxaldan daha yüksək templərlə artır. Əgər altı ay ərzində 6,5 milyard dollar müsbət saldomuz varsa, deməli, ilin sonuna qədər bu, daha da artacaq”.

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 11

Azexport.az portalına 2018-ci ilin yanvar-sentyabr aylarında 410 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 17

“Amazonla qazan” təlim proqramı başlayır — səh. 21

Dünya Ticarət Mərkəzləri Assosiasiyası ilə anlaşma memorandumu imzalanmışdır — səh. 22

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə sahibkarların müraciəti artmışdlr — səh. 23

İxracın hüquqi prosedurları üzrə seminar keçirilmişdir — səh. 26

Azərbaycan məhsulları yeni bazarlara təqdim edilir — səh. 27

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2018-ci ilin **YANVAR-SENTYABR AYLARINDA** qeyri-neft sektoru üzrə **1** milyard **207** milyon ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **138** milyon ABŞ dolları və ya **13%** **ARTMIŞDIR**

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2018-ci ilin yanvar-sentyabr ayları ərzində Azərbaycan Respublikasının ixracı **14,3 milyard** ABŞ dolları təşkil etmişdir. Bu müddətdə Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ixracda dinamik artım müşahidə olunmuş və cari ilin 9 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac **1 milyard 207 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-sentyabr ayları ərzində qeyri-neft sektoru üzrə ixrac **138 milyon** ABŞ dolları və ya **13 faiz** artmışdır. Cari ilin yanvar-sentyabr ayları ərzində Rusiyaya **402,2 milyon**, Türkiyəyə **275,6 milyon**, İsveçrəyə **105,2 milyon**, Gürcüstana **97,4 milyon** və Qazaxıstana **34,3 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin 9 ayı ərzində Rusiyaya qeyri-neft ixracı **10 faiz**, Türkiyəyə **23 faiz**, İsveçrəyə **7,7 faiz**, Qazaxıstana **61 faiz** artmış, Gürcüstana isə **1,5 faiz** azalmışdır.

2018-ci ilin yanvar-sentyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor (**144,7 milyon** ABŞ dolları) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - **93 milyon** ABŞ dolları) ikinci olmuşdur. Üçüncü yerdə isə xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (**67,6 milyon** ABŞ dolları) qərarlaşmışdır.

Cari ilin yanvar-sentyabr aylarında pambıq lifi (daranmaya məruz qalmamış), elektrik enerjisi, qabığı təmizlənmiş meşə fındığı, emal olunmamış aşqarlanmamış alüminium, albalı və gilas, kartof və digər məhsullar da qeyri-neft ixracında önəmli paya sahib olmuşlar.

Ümumiyyətlə, 2018-ci ilin yanvar- sentyabr ayları ərzində meyvə-tərəvəz ixracı **342,5 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **95,7 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **97,2 milyon**, elektrik enerjisinin ixracı **60 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **64,3 milyon**, pambıq lifi ixracı **62,7 milyon**, kimya sənayesi məhsullarının ixracı **56,9 milyon**, pambıq ipliyi ixracı **17 milyon** ABŞ dolları təşkil etmişdir.

Qeyd edək ki, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin 9 ayında pambıq lifinin ixracı 2,3 dəfə, elektrik enerjisinin ixracı 64,6 faiz, pambıq ipliyinin ixracı 37,8 faiz, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 22,9 faiz, meyvə-tərəvəzin ixracı 11,8 faiz, alüminium və ondan hazırlanan məmulatların ixracı 11,2 faiz, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 5,5 faiz artmışdır.

Cari ilin sentyabr ayında isə qeyri-neft sektoru üzrə ixrac **114 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin sentyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısına **Rusiya** (27 milyon ABŞ dolları) başçılıq etmişdir. Həmçinin qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin ilk beşliyində **Türkiyə** (25,7 milyon ABŞ dolları), **İsveçrə** (13 milyon ABŞ dolları), **Gürcüstan** (8,9 milyon ABŞ dolları) və **Qazaxıstan** (3,8 milyon ABŞ dolları) təmsil olunmuşdur.

2018-ci ilin sentyabr ayında qeyri-neft sektoru üzrə ixracda isə qabığı təmizlənmiş meşə fındığı (12 milyon ABŞ dolları) liderliyi ələ almışdır. Bu siyahıda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 11,9 milyon ABŞ dolları) ikinci, metanol (7,1 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşmışdır.

Həmçinin 2018-ci ilin sentyabr ayında pambıq lifi (daranmaya məruz qalmamış), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları, alma, emal olunmamış aşqarlanmamış alüminium, ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

2018-ci ilin yanvar-sentyabr ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2018-Cİ İLİN **YANVAR-SENTYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI OKTYABR



## 2018-Cİ İLİN **SENTYABR AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



## 2018-Cİ İLİN **YANVAR-SENTYABR AYLARINDA** 2017-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**
**(milyon ABŞ dolları ilə)**





# AZƏRBAYCAN RESPUBLİKASINDAN İXRAC EDİLƏN BƏZİ MALLARIN **DÜNYA BAZARINDA QİYMƏTİ** (ABŞ dolları ilə)

| **2017-ci il** Sentyabr ayı | | Mal | **2018-ci il** Sentyabr ayı |
|---|---|---|---|
| 1314 |  | ↓ QIZIL (1 UNSİYA) | 1198 |
| 1780 |  | ↑ PAMBIQ LİFİ (1 TON) | 1990 |
| 2096 |  | ↓ ALÜMİNİUM (1 TON) | 2026 |
| 3280 |  | ↓ ÇAY (1 TON) | 2700 |
| 320 |  | ↓ ŞƏKƏR (1 TON) | 250 |

Mənbə: Dünya Bankı

# 2018-Cİ İLİN **YANVAR-SENTYABR AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

| | 2018 | 2017 |
|---|---|---|
| Pomidor | 144,7 | 128,8 |
| Qızıl | 93 | 81,4 |
| İlkin formalı polietilen | 67,6 | 57 |
| Pambıq lifi *(mahlıc)* | 62,1 | 26,1 |
| Elektrik enerjisi | 59,6 | 36,2 |
| Fındıq ləpəsi | 52,4 | 62 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 45,3 | 20,6 |
| Albalı və gilas | 38 | 23,2 |
| Kartof | 29,6 | 25,8 |
| Digər | 615 | 608 |

# 2018-Cİ İLİN **SENTYABR AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

Fındıq ləpəsi

2017: 23,5
2018: 12



Qızıl

2018: 11,9
2017: 13,9



Metanol

2018: 7,1
2017: 4,7



Pambıq lifi
*(mahlıc)*

2018: 5
2017: 0,5



İlkin formalı polietilen

2018: 4,6
2017: 0,03



2018: 4,3
2017: 2,6



Digər yağlar və məhsullar

2018: 3,9
2017: 3,7



Alma

2018: 3,7
2017: 0,2



Emal olunmamış aşqarlanmamış alüminium

2018: 3,4
2017: 2



Şəkər

2018: 57,8
2017: 54,9



Digər

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2018-ci ilin **YANVAR-SENTYABR AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2018-ci ilin yanvar-sentyabr aylarında həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2018-ci ilin yanvar-sentyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində aşağıdakı subyektlər təmsil olunurlar: “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Kapitan Fruits" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" MMC, "Qala meyvə-tərəvəz ixracat idxalat" MMC, “Azfruittrade” MMC, “Food Export Şəmkir” MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, “Sun Food” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Det-al Alüminium" MMC, "Azərenerji" ASC, "Azergold" QSC, "Azərbaycan Hava Yolları" QSC, "SOCAR Methanol" MMC, “CTS-Agro” MMC, "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC, Naxçıvan MR Dövlət Energetika Xidməti.

Təqdim olunan infoqrafikalarda bu ixracatçıların reytinqi ilə bağlı məlumatla tanış ola bilərsiniz.



## 2018-Cİ İLİN **YANVAR-SENTYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2017-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**



## 2018-Cİ İLİN **YANVAR-SENTYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2017-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI OKTYABR



# 2018-Cİ İLİN **YANVAR-SENTYABR AYLARINDA "AZƏRKOSMOS" ASC 16,7 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





2018-ci ilin yanvar-sentyabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **22 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **86 faizini** təşkil etmişdir. 2018-ci ilin sentyabr ayında isə "Azərkosmos" ASC dünyanın **15 ölkəsinə 1,4 milyon** ABŞ dolları dəyəri xidmət ixrac etmişdir.

2018-ci ilin yanvar-sentyabr aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə** (ABŞ dolları ilə)





2018-ci ilin **YANVAR-SENTYABR AYLARINDA** Azərbaycana gələn xarici vətəndaşlar **BANK KARTLARI VASİTƏSİ İLƏ** **1002** milyon manatlıq əməliyyat aparmışlar

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə xarici vətəndaşların **BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatların dəyəri **205** milyon manat və ya **25,7%** **ARTMIŞDIR**

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2018-ci ilin yanvar-sentyabr ayları ərzində Azərbaycana dünyanın 193 ölkəsindən 2208,6 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 8,4 faizi yanvar, 7,5 faizi fevral, 12,5 faizi mart, 9,9 faizi aprel, 9,4 faizi may, 12,2 faizi iyun, 15,0 faizi iyul, 14,6 faizi avqust, 10,5 faizi isə sentyabr ayında ölkəyə gəlmişdir.

Cari ilin yanvar-sentyabr aylarında Körfəz ölkələrindən (Birləşmiş Ərəb Əmirlikləri və İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilmişdir.

Ümumiyyətlə, cari ilin 9 ayı ərzində ölkəmizə gələnlərin 31,2 faizi Rusiya Federasiyası, 19,8 faizi Gürcüstan, 10,0 faizi Türkiyə, 9,2 faizi İran, 3,3 faizi Birləşmiş Ərəb Əmirlikləri, 3,0 faizi Səudiyyə Ərəbistanı, 2,7 faizi İraq, 2,0 faizi Ukrayna, 1,5 faizi İsrail, 17,2 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Cari ilin sentyabr ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə xərcləmələrində də artım müşahidə edilmişdir. Belə ki, 2018-ci ilin sentyabr ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatlar 114,6 milyon manat təşkil etmiş və ötən ilin sentyabr ayı ilə müqayisədə 23 faiz artmışdır. Ümumilikdə isə 2018-ci ilin yanvar-sentyabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri 1002 milyon manat təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-sentyabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri 205 milyon manat və ya 25 ,7 faiz artmışdır.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLAR **(milyon manatla)**

**2016-cı il**

Yanvar - **28,2**
Fevral - **36,7**
Mart - **40,6**
Aprel - **34,5**
May - **48,6**
İyun - **74,8**
İyul - **40,9**
Avqust - **52,5**
Sentyabr - **56,8**

**CƏMİ - 413,6**

**2017-ci il**

Yanvar - **86,8**
Fevral - **72,5**
Mart - **91,1**
Aprel - **80,6**
May - **92,6**
İyun - **83,8**
İyul - **95,7**
Avqust - **100,8**
Sentyabr - **93,2**

**CƏMİ - 797,1**

**2018-ci il**

Yanvar - **99,8**
Fevral - **91,1**
Mart - **105,8**
Aprel - **109,7**
May - **107,3**
İyun - **106,7**
İyul - **126,3**
Avqust - **141,0**
Sentyabr - **114,6**

**CƏMİ - 1002,3**

3

# AZEXPORT.AZ PORTALINA 2018-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA 410 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Cari ilin **SENTYABR AYINDA** Azexport.az portalına daxil olan **İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ**
**43** milyon ABŞ dolları təşkil etmişdir

Azexport.az portalına 2018-ci ilin sentyabr ayı ərzində **43 milyon** ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olmuşdur. Ümumilikdə isə 2018-ci ilin 9 ayında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri **410 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar- sentyabr aylarında Azexport.az portalına daxil olan ixrac sifarişləri dəyər baxımından **15 faiz** artmışdır.

2018-ci ilin 9 ayında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Rusiya (18,8 faiz), ABŞ (8,6 faiz), Türkiyə (6,3 faiz), İran (4,5 faiz) və Hindistan (4,3 faiz) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə aydın olmuşdur ki, cari ilin sentyabr ayında ən çox ixrac sifarişi fındıq, çay, pomidor, yerkökü, şərab, alma, kosmetik vasitələr, mühərrik yağı, meyvə kompotu, zəfəran, qənnadı məhsulları, nar şirəsi, biyan kökü, soğan, buğda kəpəyi, kartof, tütün, uşaq iç geyimi, quru süd, meyvə tamlı süd, toyuq yumurtası, sarımsaq, narşərab, pambıq, bal, meyvə cemi və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2018-ci ilin 30 sentyabr tarixinə kimi (21 ay ərzində) Azexport.az portalına dünyanın 106 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **885 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **AZEXPORT.AZ** PORTALINA
## DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(ABŞ dolları ilə)**

**2017-ci il ərzində**

**CƏMİ - 475 milyon**




**2018-ci il üzrə**

YANVAR - 81,5 milyon

FEVRAL - 37,6 milyon

MART - 66,5 milyon

APREL - 36,9 milyon

MAY - 27,7 milyon

İYUN - 34,2 milyon

İYUL - 31,1 milyon

AVQUST - 51,5 milyon

SENTYABR - 43 milyon

**CƏMİ** - **410 milyon**



Son **21 ay** ərzindəki sifarişlərin cəmi - **885 milyon**

## 2018-Cİ İLİN **SENTYABR AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR



Çay



Fındıq



Pomidor



Yerkökü



Şərab



Alma



Kosmetik vasitələr



Yataq dəsti, mebel



Mühərrik yağı



Meyvə kompotu



Zəfəran



Qənnadı məhsulları



Nar şərab



Biyan kökü



Soğan



# 2018-Cİ İLİN **YANVAR-SENTYABR AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ






# 4

# “AMAZONLA QAZAN” TƏLİM PROQRAMI BAŞLAYIR

Azexport.az internet portalı “Baku E-Commerce Academy” ilə birlikdə yeni təlim proqramına başlayır. Təlim zamanı iştirakçılara Amazon.com portalında qeydiyyat və iş prinsipləri, bazar araşdırması və yüksək satış göstəricilərinə malik məhsulların təyin olunması, Alibaba.com və digər portallar üzərindən etibarlı təchizatçıların tapılması, məhsulların Amazon.com-un anbarlarına göndərilməsi, məhsulların yerləşdirilməsi və mövcud reklam imkanlarından istifadə, beynəlxalq logistika və gömrük əməliyyatları, beynəlxalq ticarət hüququ və standartlar, texniki tənzimləmə və digər məsələlər öyrədiləcəkdir. Təlimlərdə praktiki satışların həyata keçirilməsi üçün hər bir iştirakçıya Amazon.com hesabı və ABŞ-da bank hesabı açılacaq, plastik kartlar təqdim ediləcəkdir.

Azexport.az portalından bildirmişlər ki, bu təlim yeni iş və qazanc imkanı axtaranlar üçün əsl fürsətdir. Təlimləri uğurla başa vuran iştirakçıların bu sahədə müstəqil və ya “Baku E- Commerce Academy” komandasına qoşularaq birgə fəaliyyət göstərmək imkanları olacaqdır.

Noyabrın 1-dən etibarən 3 ay müddətində davam edəcək təlimin yekunlarına uyğun olaraq, iştirakçılar İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin sertifikatını əldə edəcəklər.

Nəzərinizə çatdıraq ki, təlimdə iştirakçı sayı məhduddur. 01 yanvar 2018-ci il tarixinə qədər Azexport.az portalında qeydiyyatdan keçmiş və məhsullarını portala yerləşdirmiş şirkət nümayəndələrinə təlim ödənişsizdir.

Təlimdə iştirak etmək istəyənlər Azexport.az portalına müraciət edə bilərlər. (Tel.: 521 34 94; (050) 295 86 87)



5

# DÜNYA TİCARƏT MƏRKƏZLƏRİ ASSOSİASİYASI İLƏ ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) Dünya Ticarət Mərkəzləri Assosiasiyasının (WTCA) Hindistan üzrə nümayəndə heyəti ilə görüş keçirilmişdir. Görüş zamanı İİTKM-in operatoru olduğu Azexport.az portalının rəhbəri Zaur Qardaşov Azərbaycanda son illər ərzində həyata keçirilən layihələr barədə qonaqlara ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, ölkələr arasında təməli uzun illər öncə qoyulan münasibətlər getdikcə yüksələn xətt üzrə inkişaf edir və çoxsahəli əlaqələrin inkişaf etdirilməsi üçün münbit zəmin vardır.

Dünya Ticarət Mərkəzləri Assosiasiyasının Hindistan nümayəndəliyinin vitse prezidenti Someş Batra səfərdə olduğu müddətdə Azərbaycanla bağlı müsbət təəssürat əldə etdiyini vurğulamışdır. Görüşdə həmçinin WTCA-nın Hindistan şəbəkəsi üzərindən Azərbaycandan ixrac imkanları müzakirə edilmişdir.

Daha sonra Dünya Ticarət Mərkəzləri Assosiasiyası və Azexport.az portalı arasında anlaşma memorandumu imzalanmışdır.

Qeyd edək ki, Dünya Ticarət Mərkəzləri Assosiasiyası 1968-ci ildə Nyu-York şəhərində Dünya Ticarət Mərkəzinin yanında yaradılmışdır. Bu qurum beynəlxalq ticarətin genişləndirilməsi üçün Dünya Ticarət Mərkəzlərinin yaradılması və effektiv fəaliyyətini nəzərdə tutan qeyri-kommersiya, qeyri-siyasi bir birlikdir. Hazırda özündə 90 ölkədə 287-dən çox lisenziyalı Dünya Ticarət Mərkəzlərini, eləcə də 850,000-dən çox şirkət və fərdi üzvləri birləşdirir.





# 6

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNƏ SAHİBKARLARIN MÜRACİƏTİ ARTMIŞDIR

2018-ci ilin oktyabr ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən ixracatçılara "bir pəncərə" prinsipi əsasında ixracla bağlı tələb olunan sənədlər təqdim edilmişdir.

Cari ilin oktyabr ayında Azərbaycan sahibkarlarının "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə müraciəti artmışdır. Mərkəz vasitəsi ilə həyata keçirdikləri ixracın dəyəri 14,2 milyon ABŞ dolları təşkil etmişdir. Ölkəmizdə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərə əsasən xurma, nar, soğan, xiyar, pomidor, üzüm, kartof nişastası, meyvə şirələri, quru meyvə, maqnezit, polad armatur yayma, soğan, polad boru, polad armatur yayma, polad pəstah, qızıl külçə, qiymətli metal külçələr, süd məhsulları, qoyun əti, biyan, sintetik boya, dondurulmuş toyuq ayaqları, dondurulmuş ilbiz əti və qabıqları, dağıstan turu və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Rusiya, Ukrayna, Gürcüstan, Türkiyə, Qazaxıstan, İran, Çin, Yunanıstan, İsrail daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac olunmuşdur.

Qeyd edək ki, 2018-ci ilin yanvar-oktyabr aylarında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **127 milyon** ABŞ dollarından çox olmuşdur.



# 2018-Cİ İLİN YANVAR - OKTYABR AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları)




2018-ci ilin yanvar - oktyabr aylarında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən məhsulların ümumi qeyri-neft sektoru üzrə ixracda payı **10 faiz** təşkil etmişdir



# 2018-Cİ İLİN **OKTYABR AYINDA "BİR PƏNCƏRƏ"** İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**



7

# İXRACIN HÜQUQİ PROSEDURLARI ÜZRƏ SEMİNAR KEÇİRİLMİŞDİR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi və "Azlegal Consalting" şirkətinin birgə təşkilatçılığı ilə "Xarici ticarət əməliyyatlarının hüquqi prosedurları və müqavilələrin bağlanılması" mövzusunda seminar keçirilmişdir.

Təlimin təşkilatçıları bildirmişlər ki, belə bir müzakirənin təşkil olunmasının məqsədi məhsulların xarici bazarlara ixracı zamanı tələb olunan hüquqi prosedurlar, onları əldə etmək üçün müraciət formaları, tələb olunan sənədlər, xarici tərəfdaşlarla danışıq, qanunvericilik islahatları haqda ətraflı müzakirə aparmaqdır.

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin meneceri təlimdə çıxış edərək bildirmişdir ki, ölkədə aparılan iqtisadi islahatlara töhfə vermək üçün ixracatçı sahibkarlara mütəmadi olaraq belə təlimlərin təşkil olunmasına çalışılır. Seminar zamanı Azərbaycan ixracatçılarının hüquqi biliklərinin artırılması, xarici tərəfdaşlarla hüquqi müstəvidə danışıqların aparılması və ixrac müqavilələrinin hazırlanması üçün metodologiya barədə dolğun məlumat verilmişdir.

"Azlegal Consalting"-in mütəxəssisləri təqdimatlardan sonra, sahibkarları maraqlandıran sualları cavablandırmışlar. Ödənişsiz qaydada təşkil olunan təlimdə fərqli istiqamətlər üzrə fəaliyyət göstərən 40-dan artıq sahibkar iştirak etmişdir.







8

# AZƏRBAYCAN MƏHSULLARI YENİ BAZARLARA TƏQDİM EDİLİR

"Made in Azerbaijan" brendinin təşviqi, yerli məhsulların xarici bazarlarda tanıdılması məqsədi ilə İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə 17 Azərbaycan şirkətinin Monqolustanın Ulan-bator şəhərinə təşkil olunmuş ixrac missiyası başa çatmışdır.

İxrac missiyası zamanı Azərbaycanın "Abşeron-Şərab", "A+CO", "Merit Brand", "Şərq Ulduzu", "Aqro-Azerinvest", "Aspi Agro", "Azəri" şirkətləri Monqolustanda fəaliyyət göstərən ən böyük şərab məhsulları üzrə distributor "World Wine LLC" şirkəti ilə və "Sansar" mağaza şəbəkələri ilə görüş keçirmişdir. Azərbaycanın "Aspi Agro" şirkəti ilə Monqolustanın "Worldwine" şirkəti arasında məhsulların ixracına dair ilkin razılaşma olmuşdur. Bundan başqa, Azərbaycanın "Herba Flora" şirkəti ilə Monqolustanın "Vitafit İnvest" şirkəti arasında herbal ekstraktın satışı ilə bağlı razılığa gəlinmişdir.

Azərbaycanın "Konfirom" şirkəti ilə Monqolustanın "Shijirjin Group", "Altan Jolo İmpeks", "Makn export" şirkətləri arasında qənnadı məhsullarının, "Gilan FMCG" şirkəti ilə Monqolustanın "Vertus Group" şirkəti və "Sansar" supermarketlər şəbəkəsi arasında meyvə şirələri və konservləşdirilmiş məhsulların ixracına dair danışıqlar aparılmışdır.

Azərbaycanın İKT sahəsində fəaliyyət göstərən "Cybernet", "Sinam", "Neuron Technologies" və "AZİNNEX" şirkətlərinin təklif etdiyi xidmətlər Monqolustan iş adamları və dövlət qurumlarının nümayəndələri tərəfindən böyük maraqla qarşılanmışdır.





## Parisdə "AZƏRBAYCAN ŞƏRABLARI GÜNÜ" keçirilmişdir

“2018-2025-ci illər Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı”nın icrasının təmin edilməsi və Azərbaycan istehsalı olan şərabların təbliği istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ilə Fransanın Paris şəhərində yerləşən Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatında (OİV) "Azərbaycan Şərabları Günü" keçirilmişdir. Tədbirdə Azərbaycan istehsalı olan şərablar nümayiş olunmuş və şərabların dequstasiyası təşkil edilmişdir.

Qeyd edək ki, “2018-2025-ci illər Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı”na əsasən şərabçılıq müəssisələrinin istehsal potensialından maksimum səviyyədə istifadə etməklə ölkədə şərab ixracının 2025-ci ilədək 5 dəfə artırılması hədəflənir.

Məlumat üçün bildirək ki, 21-25 oktyabr tarixlərində Fransanın paytaxı Parisdə keçirilən “Sial Paris” beynəlxalq ərzaq sərgisində də Azərbaycanın şərab və digər spirtli içkiləri nümayiş olunmuşdur.






## Azərbaycan istehsalı olan spirtli içkilər VARŞAVADAKI SƏRGİDƏ nümayiş olunmuşdur

Cari ilin oktyabr ayında Polşanın paytaxtı Varşavada “Whisky Live Warsaw” Festivalı keçirilmişdir. İqtisadiyyat Nazirliyinin və AZPROMO-nun dəstəyi, Azərbaycanın Polşadakı Səfirliyində Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndəsi Aparatının təşkilatçılığı ilə Azərbaycan istehsalı olan spirtli içkilər “Made in Azerbaijan” vahid ölkə stendində nümayiş etdirilmişdir.

Festival zamanı ən çox ziyarət edilən stendlərdən olan Azərbaycan stendində nümayiş olunan şərablar və müxtəlif növ meyvə araqları, brendilər, viskilər qonaqlar tərəfindən maraqla qarşılanmışdır.

Sərginin açılışında Azərbaycanın Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndəsi Nemət Nağdəliyev çıxış edərək, “Whisky Live Warsaw” Festivalının Azərbaycan məhsullarının tanıdılması, potensial alıcılarla əlaqələrin qurulması baxımından önəmini vurğulamışdır.

Qeyd edək ki, 2000-ci ildən keçirilən “Whisky Live” Festivalında dünyanın müxtəlif ölkələrindən olan spirtli içki istehsalçıları öz məhsullarını nümayiş etdirirlər.



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**





AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 33 18
info@ereforms.org

